# Beynəlxalq Akademiya Yaqub Mahmudov haqqında kitab nəşr etdirib




**Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının (TDABEA) Baş Elmi Şurasının 2025-ci il 14 yanvar tarixli qərarı ilə Türkiyənin paytaxtı Ankara şəhərində Azərbaycan, türk və ingilis dillərində "Professor Yaqub Mahmudov" adlı kitab çap olunub.**

"Azərbaycan Tarixçiləri" İctimai Birliyindən AZƏRTAC-a bildirilib ki, nəfis şəkildə çap olunan kitabın elmi redaktoru TDABEA-nın Ankara şəhərində başqanı, professor Hayrettin İvgindir.

Yeni nəşrdə AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovun həyatı, elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti barədə yığcam məlumat verilir. Nəşrə, həmçinin görkəmli tarixçi alimin həyat və fəaliyyətini əks etdirən fotomateriallar daxil edilib.

Bundan başqa, Yaqub Mahmudov TDABEA-nın Mükafat Komitəsinin 2025-ci il 3 fevral tarixli qərarı ilə "Özgürlük" ordeninə layiq görülüb. Akademikə bu orden türk dünyasının elm və təhsilindəki böyük xidmətlərinə görə verilib.

Xatırladaq ki, Yaqub Mahmudov 2019-cu ildə TDABEA-nın həqiqi üzvü seçilib və həmin akademiyanın "Beynəlxalq Qızıl Ulduz" medalı (2019), Beynəlxalq Atatürk Mükafatı (2019), 2019-cu il üçün "Türk dünyasında ilin elm adamı" beynəlxalq mükafatı (2020), "İstiqlal" ordeni (2023) və 2022-ci il üçün "Türk dünyasında ilin adamı" beynəlxalq mükafatı (2023) ilə təltif edilib.

Azərbaycan.- 2025.- 16 mart (№58).- S.2.